

جمعه ۲۱ ربیع الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیسی — ۲۴ کانون ثانی ۱۹۱۹ سنه نومرو ۹۶

# آذربایجان

گونده‌لک سیاسی، اجتماعی، ادبی، اقتصادی تورک غزته‌سیدر.

تورک و اسلاملغه مفید مقاله‌لره صحیفه‌لرمز آچیقدر. درج اولونمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقاله‌لرک مکافاتی اداره تعیین ایدیور.

اعلان فیاتی: سطری ۳ روبله کرائله گیدن اعلانلار ایچون تنزیلات ایدیلر.

آبونه شرایطی: باکو ایچون: ۱ آیلغی ۱۸ روبله، ۲ « ۳۲ »، ۳ « ۴۵ ». غیر شهرلر ایچون: ۱ آیلغی ۲۰ روبله، ۲ « ۳۵ »، ۳ « ۵۰ ».

محل اداره: باکو، وورونسوفسکی وغوبرنسکی کوچه‌لرک کنجنده ۴ نومرولی ایوده «آذربایجان» اداره‌سی. تلفون نمره ۶۰–۳۹.

تک نسخه‌سی ۷۰ قپك

انا لله و انا الیه راجعون

صادق بك، احمد بك و علی بك حاجینسقی‌لر کمال یأس و تحسرله سوگیلی آتالاری

عیسی بك حاجینسقی

نك وفات ایتدیگنی قوم اقرباسنه و دوست آشنالارینه اعلان ایدیورلر. تشییع جنازه مرحومك ایوندن تابرئنی کوچه‌ده بوگون ساعت ۱۰ده قالدیریلوب شاه مسجدینه آپاریلاجقدر. 2657

انا لله و انا الیه راجعون

عزیز یولداشلاریم صادق بك، احمد بك و علی بك حاجینسقی‌لرك سوگیلی آتالاری

عیسی بگ حاجینسقی‌نك

یانوار آینك ۲۲ سنده واقع اولان وفاتی مناسبتیله مشار الیه آرقاداشلاریمك یاس و تأثرلرینه قلبا اشتراك ایده‌رك اظهار تعزیت ایدیورم. احمد جودت پپی‌نوف T-19

انا لله و انا الیه راجعون

مهدی بك و جمو بك حاجینسکی‌لر کمال حزن و تأثرله اوز دوست و آشنالارینه خبر وریورلر که، عزیز و مهربان دائیلاری عیسی بگ حاجینسقی همین یانوار آینك ۲۲ سنده وفات ایتمشدر. تشییع جنازه مرحومك دریا کنارینده‌کی ایوندن شاه مسجدینه یانوارك ۲۴ ساعت ۱۰ ده اولاجقدر. T-18

اعلان

شنبه گونی ۱۹۱۹ سنه‌سی یانوار آینك ۲۵ نده گوندوز ساعت ۱۲ ده آذربایجان مجلس مبعوثان اجلاسی اولاجاغی اعلان ایدیلیر. T-17

ساتیلور

نفتلانده ۱ نجی جرگه ده قرمزی کرپیچدن تیکلمش نمرو اوطاقلر. آدریس: (بورن) معدننده اسدالله‌یوف و باخود محمد اوف. 2656

انکلتره و آذربایجان استقلالی

جمعه آقشامی سحر ساعت ۱۱ده رئیس وکلا فتحعلی خان خویسکی حضرتلری بالقان و قافقاسیاده عموم انگلتره قوشونلاری باش قوماندانی هم‌چنین اعلی حضرت انگلتره قرالی نماینده‌سی اولان سیر جورج میلن ایله گوروشمشدر. سیرمیلن فتحعلی خانه بیان ایتمشدر که آذربایجان دائره‌سنده انگلتره حکومتی آذربایجان حکومت جمهوریه‌سنی تانیور و قبول ایدیور و بو حکومته متفقر قوماندانلغی هر بابده کومك ایده‌جکدر. آیری آیری ملتلرك تعیین مقدرات حقوقی انگلتره حکومتی نقطهٔ نظرنجه مدافعه ایدیلمه‌لیدر. صلح قونفرانسنده‌ده انگلتره نماینده‌لری بونی مدافعه ایده‌جکلردر. بوندن علاوه گنرال بیان ایتمشدر که متفقر قوماندانلغی تازه تشکیل ایتمش زاقافقاسیا حکومتلرینك داخلی ایشلرینه قاریشمیاجقدر و متفقلرك یگانه مقصدی بو دولتلرده آسایش و مسالمته کومك ایتمکدر.

تعطیل ایتمه‌لیمیدر؟

قسم رسمی

مساعی ناظرینك آذربایجان فعله‌لرینه مراجعتی



*"Azərbaycan" qəzetinin 96-cı nömrəsinin 1-ci səhifəsi*

Cümə, 24 yanvar 1919-cu il, nömrə 96

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Cümə, 21 rəbiülaxir sənə 1337. 24 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rubldir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rubldir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Sadiq bəy, Əhməd bəy və Əli bəy Hacınskilər kamali-yəs və təhəssürlə [böyük bir hüzün və kədərlə] sevgili ataları İsa bəy Hacınskinin vəfat etdiyini qövm-əqrabasına və dost-aşnalarına elan edirlər. Təşyeyi-cənazə [cənazənin yola salınması] mərhumun evindən Naberejnı küçədə bu gün saat 10-da qaldırılıb Şah məscidinə aparılacaqdır.

*2657*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Əziz yoldaşlarım Sadiq bəy, Əhməd bəy və Əli bəy Hacınskilərin sevgili ataları İsa bəy Hacınskinin yanvar ayının 22-də vaqe olan vəfatı münasibətilə muşarünileyh [adları çəkilən] arxadaşlarımın yə's və təhəssürlərinə [matəm və kədərlərinə] qəlbən iştirak edərək izhari-təziyət edirəm [baş sağlığı verirəm].

*Əhməd Cövdət Pepinov*
*T-19*

**İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN**

Mehdi bəy və Camo bəy Hacınskilər kamali-hüzn və təəssürlə öz dost və aşnalarına xəbər verirlər ki, əziz və mehriban dayıları İsa bəy Hacınski həmin yanvar ayının 22-də vəfat etmişdir. Təşyeyi-cənazə mərhumun dərya kənarındakı evindən Şah məscidinə yanvarın 24-ü saat 10-da olacaqdır.

*T-18*

**ELAN**

Şənbə günü 1919 sənəsi yanvar ayının 25-də gündüz saat 12-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan edilir.

*T-17*

**Satılır**

Naftalanda 1-ci cərgədə qırmızı kərpicdən tikilmiş nömrə otaqlar.

Adres: BORN mədənində Əsədullayev və yaxud Məhəmmədov.

*2656*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

### Məsai [Əmək] nazirinin Azərbaycan fəhlələrinə müraciəti

Məsai naziri vəzifəsini müvəqqətən ifa etməyi öhdəmə aldığımdan özümə borc bilirəm fəhlələrə xəbər verim ki,

hal-hazırda Azərbaycandan ötrü yaradıcı iş vaxtı gəlmişdir və bu vaxtdan da lazımi qədər istifadə etməlidir. Çünki keçmiş dövrlər məmləkətimizin xozyaystva [təsərrüfat] həyatında bir çox xarabazarlıq nişanələri buraxıb külli miqdarda qiymətli malların tələf olmasına bais olmuşdur. İstehsalat işlərinin böylə bərbad hala düşməsi və əmvalın [malların] tələf olması, birinci zəruri şeylərin qiymətini ziyadəsilə yüksəldib fəhlələri aclığa və müşkülata düçar etməklə bərabər, zəhmətkeş sinifə istinad edən cavan Cümhuriyyətimiz maliyyə böhranı təhdidi altındadır. Buna görə fəhlələrdən xahiş edirəm ki, hal-hazırda bütün qüvvələrini mədən həyatında adi şərait vücuda gətirməyə, yəni nəqliyyat, istehsalat işlərinin möhkəmləşməsinə, yaxşılaşmasına sərf etsinlər. İş sahiblərindən xahiş edirəm ki, ticarət və sənaət [sənaye] işlərinin genişlənməsində fəhlələri özlərinə müttəfiq hesab edib, məmləkətimizdən ötrü tarixi bir hadisələr mövcibincə [hadisələrə uyğun olaraq] onların ehtiyaclarını nəzərə alsınlar.

Hökumət namından [adından] və öz tərəfimdən izhar edirəm ki, mədənlərdə həyatın, mənzil məsələsinin, səhiyyə işlərinin, zəhmət haqlarının yaxşılaşmasını həyata tətbiq etməkdən ötrü hər cür tədbirlər ittixaz etmişəm [tədbirlər görmüşəm].

Fəhlələrlə iş sahibləri arasındakı münasibatı [münasibətləri] yaxşılaşdırmaqdan ötrü fəhlə məsələsinə dair xüsusi müşavirə haqqındakı hökumət tərəfindən təsvib [təsdiq] edilmiş qanun, Parlamentə daxil edilmişdir. Bu müşavirədə hər iki tərəfin təşkilatlı nümayəndələri iştirak edəcəklərdir.

Məsai Nəzarəti fəhlələrin maddi əhvalını nəzərə alıb, Azərbaycan Hökumətinin başqa müəssisə nümayəndələri ilə bərabər bahalığa görə zəhmət haqqının artırılması məsələsinin fəhlələrlə iş sahibləri arasında sazişlə həlli üçün iştirak etmişdir. Bundan böylə zəhmət məsələləri məzkur [deyilən] xüsusi müşavirə vasitəsilə həll ediləcəkdir. Fəhlələrin halını və haqqını bütün qanuni demokratik vəsilələri [vasitələri] ilə müdafiə və mühafizə etməklə bərabər, mən fəhlələrdən iş görməyi tələb edəcəyəm. Çünki təhəmmül edilməz [dözülməz] böylə bir haldan çıxmaq, ancaq yaradıcı fəaliyyətlə mümkündür.

Buna görə mən, cümhuri hökumətimiz namından fəhlələri və iş sahiblərini məmləkətimizin feyzi üçün müttəhid [birgə] işləməyə dəvət edirəm.

*Məsai naziri A. Səfikürdski*

## İNGİLTƏRƏ VƏ AZƏRBAYCAN İSTİQLALI

Cümə axşamı, səhər saat 11-də Rəisivükəla [Baş nazir] Fətəli xan Xoyski həzrətləri Balkan və Qafqaziyada ümum İngiltərə qoşunları baş komandanı, həmçinin əlahəzrət İngiltərə kralı nümayəndəsi olan ser Corc Miln ilə görüşmüşdür. Ser Miln Fətəli xana bəyan etmişdir ki, Azərbaycan dairəsində İngiltərə hökuməti, Azərbaycan hökuməti-cümhuriyyəsini tanıyır və qəbul edir və bu hökumətə Müttəfiqlər komandalığı hər babda [hər məsələdə] kömək edəcəkdir. Ayrı-

ayrı millətlərin təyini-müqəddərat hüququ İngiltərə hökuməti nöqteyi-nəzərincə müdafiə edilməlidir. Sülh Konfransında da İngiltərə nümayəndələri bunu müdafiə edəcəklərdir. Bundan əlavə, general bəyan etmişdir ki, Müttəfiqlər komandanlığı təzə təşəkkül etmiş Zaqafqaziya hökumətlərinin daxili işlərinə qarışmayacaqdır və Müttəfiqlərin yeganə məqsədi bu dövlətlərdə asayiş və müsalimətə [əmin-amanlığa] kömək etməkdir.

## TƏTİL ETMƏLİMİDİR?

Keçən gün fəhlə konfransında əmələlərin [fəhlələrin] maaşı məsələsi baxılırdı. Sosial-demokrat nümayəndələrindən və sahibkarlarla danışıq aparan komisyon əzasından [üzvlərindən] Roxlin təklif eylədi ki, tətil olmasın, əmələlər subay və evli fərqi qoymayıb hamıya 360 manat artırmağa razı olsunlar.

Əmələlər çoxluqla buna razı olmadılar. Dedilər ki, gərək biz öz istədiklərimiz üstündə bərk duraq və komisyona tapşırdılar ki, təkrar sahibkarlarla görüşsün, onların axırıncı cavablarını öyrənsin, tainki yekşənbə [bazar] günü təzədən qurulacaq konfransda fəhlələr təkrar bu məsələyə baxsınlar və tələblər qəbul edilmədiyi təqdirdə tətil başlansın.

Əmələ vətəndaşlar, imdi nəzərdə ən böyük bir məsələ vardır.

Tətil etməlimidir?

360 manat artıq məvacibi qəbul etməkmi, yoxsa tətil eləməkmi? Hansı yaxşıdır?

Bir raboçinin [fəhlənin] keçən dəfə konfransda hesab eylədiyinə görə, əmələlərin azı 26, çoxu 50 manat istəməkdən ibarət olan tələbi ilə ayda 360 manat təklifinin arasında böyük fərq yoxdur.

Arada böyük fərq görülürsə, böyük məvacib alan əmələlərin məvaciblərində görülür. Yoxsa qara əmələ və kiçik məvacibli əmələlərin bu müamilədən [əməliyyatdan] zərəri yoxdur.

Üç yüz altmış manat çörək bahalığını ödəmək üçündür. Madam ki, öylədir, o halda bütün əmələlərin ehtiyacı bir dərəcədədir, demək olar.

Hər halda vaxt o vaxt deyildir ki, tətil ilə onsuz da müşkül vəziyyət bir az da çətinləşsin. Tətil olarsa yollar bağlanar, məişət bir az da müşkül olar. Bundan da Azərbaycanın bu anda rahat və sükunətə, işləməyə, çalışmağa möhtac olan halı müşkülata uğrar. Düşmənlərimizə hər fitnə açmaq imkanı verər. Nəticə, nə qədər çox məvacib ala bilsək belə yenə də dükançıların, möhtəkirlərin cibinə girər. Halbuki hökumət[ə] qüvvət, nüfuz və etibar verməklə ona kömək eyləməlidir ki, ərzağın ucuzlaşması üçün tədbirlər görsün, möhtəkirlər, bahaçılarla mübarizə eyləsin. Bunun üçün daha faydalıdır ki, ayda 360 manat artırmaq təklifinə razı olub, tətil edilməsin.

Bunu da bilməlidir ki, iş sahibləri mədənlərin bugünkü halı ilə yolların bağlı olduğundan neftin tökülüb qalması üzündən böyük faydalar da görməyirlər.

Əmələlərə ağıl və tədbirlərlə iş görmək, hissiyyata tutulma[ma]q lazımdır.

Bugünkü halda tətil etmək, əmələlərə qətiyyən fayda verməz!

İşi tətilə qədər götürməməli, bu yekşənbə konfransa gəlib məsələnin sülhlə həllinə çalışmalıdır.

*M. Ə.*

## ŞURAYİ-VÜKƏLADA
## [NAZİRLƏR KABİNETİNDƏ]

**14 dekabr 1918 sənə**

Daxiliyyə naziri həzrətlərinin müavininin əlbisə emalatxana xidmətçilərinə vermək üçün 44964 rublə təxsisi [ayrılması] haqqındakı məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir [qərara alınmışdır]:

Daxiliyyə nazirinə 44964 rubləlik istiqraz açılsın.

**14 dekabr 1918 sənə**

Maliyyə Nəzarəti dəftərxanə müdiri dairə və quberniya gəlir vergisi idarələrinə 1918 və 1919-cu sənələr üçün əza intixabı [üzv seçkisi] haqqındakı məruzəsini istimadan sonra qət edilmişdir:

1) Dövləti gəlir vergisi 10-cu qanunun 4-cü fəslinin 3-cü maddəsinin vaxtı Azərbaycanda zemstvo [yerli özünüidarə qurumları] və quberniya müəssisələri təsisinədək imtidad edilsin [uzadılsın].

2) 1918 və 1919-cu sənələrdə gəlir vergisi müəssisələri təsis edildikdə 10-cu qanunun 3-cü və 4-cü maddələrinin tətbiq edilməsinə izin verilsin.

**14 dekabr 1918 sənə**

Maliyyə Nəzarətinin dəftərxanası müdirinin aksiz hesabı ləğv etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Aksiz qanununun 348, 349, 353, 379, 381-ci maddələri mövcibincə [maddələrinə əsasən] aksizsiz hesablar ləğv edilsin.

Maliyyə Nəzarətinə ixtiyar verilsin ki, vəqti-müəyyənə [müəyyən vaxt] təyin etsin ki, o vaxtdan sonra qayırılacaq aksizsiz spirto qayırılmasn.

**21 dekabr 1918 sənə**

Ərazi naziri həzrətləri müavininin Ərazi Nəzarəti cənbindəki [nəzdindəki] Su nəqliyyat[ı] idarəsinin müvəqqəti xidmətçiləri və maaşları təsdiqi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Ərazi müavini tərəfindən məruzə ilə pişnihad [təqdim] edilən Su nəqliyyatı idarəsi xidmətçiləri və maaşları haqqındakı layihəni təsdiq etmək.

2) Su nəqliyyatı idarəsi xidmətçilərinin noyabr və dekabr ayları məvaciblərini vermək və dəftərxana məxaricatından [xərclərindən] ötrü 43826 rublə 30 qəpiklik istiqraz açılsın.

**12 noyabr 1918 sənə**

Kiçik Şura təşkili haqqında Rəisi-vükəlanın [Baş nazirin] məruzəsini dinlədikdən sonra qət edilmişdir:

Hökumət cənbində nazirlərin Kiçik Şurasını təşkil etməli. Məzkur [adı çəkilən] şuraya nazirlər Rəisi-vükəla vasitəsilə öz məruzələrini təqdim edəcəklər. Mamafih [bununla belə], hər nazir Kiçik və Böyük Şuraya məruzəsinin verilməsi haqqında təhrirən [yazılı olaraq] Rəisi-vükəlaya məlumat verməlidir. Kiçik Şura qətnamələrinə etiraz etmək ixtiyarına Rəisi-vükəla və məruzə sahibi nazir muxtardır [ixtiyar sahibidir]. Fəqət Rəisi-vükəla vasitəsi şərtdir. Kiçik Şura qətnaməsinə etirazı Böyük Şuraya etməlidir.

**14 dekabr 1918 sənə**

Maliyyə Nəzarəti müdirinin məmurin [məmurların] maaşından xəzinəyə verilən hissələri haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) 5-ci qanun məcmusu cildinin 284-

316-cı maddələrinin gömrük haqqındakı maddələr[i] ləğv edilsin.

2) 284-316-cı maddələr mövcibincə alınmamış pullar xəzinə hesabından çıxarılsın.

## TELEQRAF XƏBƏRLƏRİ

* Lizbondan [Lissabondan] alınan teleqrafda denilir ki, Portekizin [Portuqaliyanın] Oportu [Portu] və sair şəhərlərində monarş[i] [monarxiya] lehinə hərəkat başlanmışdır. Manueli kral elan etmişlərdir, amma özü meyil göstərmir.

* Almaniyada seçki vaxtı xırda atışmalar olmuşdur.

* Paris - Böylə rəvayət edilir ki, Avstriya flotu Korfuya gələcək və fransız admiralının təhti-idarəsinə [idarəsi altına] keçəcəkdir.

* Paris - Sülh Konfransının xüsusi qəzetəsi hüquqşünasların kayzer Vilhelm barəsində olan rəylərini elan edir. Hüquqşünasların rəyinə görə, Vilhelm Yevropa müharibəsinin bütün təxribatına məsuldur. Çünki, müharibə ibtidasında [başlanğıcında] Vilhelm nə kişiyə, nə arvada, nə uşaqlara rəhm edilməyəcəyinə əmr sadir eyləmişdir [əmr vermişdir].

* Tiflis - Berlin qəzetələrinin rəvayətinə görə, müstəqil sosial-demokrat başçıları Ledebur və Meyer həbs edilmişlərdir.

* Berlin - İnqilab qəhrəmanlarından Libknext ilə Roza Lüksemburqun qətli Berlində böyük həyəcana səbəb olmuşdur. Əhvalın böylə kəskin olduğu bir hində [vaxtda] yanvarın 19-da Məclisi-Müəssisan intixabatının [seçkilərinin] baş tutacağı şübhəlidir. Böylə məlum olur ki, hökumət qətl işini təhqiq və qatilləri təhti-məsuliyyətə [məsuliyyət altına] almaq fikrindədir. Məhbusları aparan dəstənin zabitlərini həbsə almışlardır. Bu hal, hökumətin vəziyyətini müşkülata düçar edir. Ən sol sosialistlər öz başçılarının qətlini bəhanə edərək öz məqsədlərinə nail olmağa çalışacaqdırlar. Yanvarın 14-də Kölndə Freyheyt əmələləri [fəhlələri] tətilə dəvət edir.

## SÜLH ƏTRAFINDA

* Sülh Konfransı qərar vermişdir ki, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] məsələsini ancaq müharib [savaşan] dövlətlər müzakirə edəcək və əsas qanunlarını onlar qoyacaqlardır. Konfransın böylə qərarı bitərəf dövlətlərin son dərəcə narazılıqlarına bais olmuşdur. İngiltərə tərəfindən Cəmiyyəti-Əqvam haqqında edilmiş olan təklif təkmil olunmuşdur [təkmilləşdirilmişdir].

* Paris - Amerika rəisi-cümhuru Vilson, Fransa Baş vəziri Klemansonun Sülh Konfransına sədr intixab edilməsini [seçilməsini] təklif eyləmişdir.

* Paris - Bu gün Qar dö-Orsedə Puankare rəyasəti altında şura silsiləri [müzakirələr silsiləsi] başlanır. Bu cələsələr [iclaslar] Müttəfiqlərin rəsmi Sülh Konfransından başqa xüsusi şuralarıdır. Bu şuralara 24 nəfər nümayəndə dəvət edilmişdir. Hərgah ümum [bütün] nümayəndələr gəlib yetişmiş olsalar, onların sanı 64-ə varacaqdır. Qəti surətdə anlaşılır ki, Belçika ilə Serbiyaya iki nümayəndə yerinə konfransda üç yer veriləcəkdir. Böyük

dövlətlər nümayəndələrinin dünən Kar dö-Orsedə iki cələsələri olmuşdur. Konfrans mübahisatı [mübahisələri] məsələsi burada həll edilir. Şurada arzu edilmişdir ki, konfrans müzakiratı xüsusunda müfəssəl məlumat verilsin, amma konfransdan qabaqkı iclasların məlumatı məhdud olacaqdır. Bundan əlavə, qəbul edilmiş qərara görə, mətbuat nümayəndələri konfrans cələsələrinə buraxılacaqlar. Fəqət bəzi ittifaqlarda [hallarda] cələsələr qapalı olacaqdır.

## TƏQDİR EDİLƏCƏK BİR TƏŞƏBBÜS

Bir dəstə ədib və mühərrirlər ədəbi, ictimai və siyasi bir məcmuə nəşr etmək məqsədilə Cümhuriyyətimizin Maarif Nəzarətinə işbu məruzəni vermişlərdir:

Cümhuriyyətimizin Maarif naziri canibi-alisinə bir dəstə ədib və mühərrirlər və ədəbiyyat həvəskarları gənclər tərəfindən məruzədir.

Həyati-ictimaiyyə və siyasiyyəmizi təcəlli [nümayiş] etdirən cümhuriyyətimizdə gözə çarpacaq nöqsanat bütün Azərbaycana aid olmaqla bərabər, hər azərbaycaninin [azərbaycanlının] də onda bir hissəsi vardır. Həqiqi vətəndaşların o nöqsanları islah etməyə çalışmaları bir vəzifeyi-müqəddəsələri olsa gərəkdir. Bu xüsusu nəzəri-etinaya alan biz ərbabiqələm və ədəbiyyat maraqlıları bir ədəbi məcəllə nəşrini çoxdan bəri düşünməkdəyiz. Zira böylə məcəlləyə cümhuriyyətimizin ehtiyacı vardır.

Əski rus istibdadı idarəsi altında yaşadığımız zamanlar, fikirlərimiz və qələmlərimiz azad olmadığı halda, ədəbi məcmuələrə malik bulunurduq. İstiqlaliyyətimiz elan, fikirlərimiz və qələmlərimiz sərbəst olduğu bir mühitdə ədəbi, ictimai və siyasi məcəllələrimiz yoxluğu cümhuriyyətimiz daxilində bir boşluq, həm də gözə çarpacaq və nəzəri-diqqəti cəlb edəcək bir boşluq, dolayısı ilə bir nöqsan təşkil etməkdədir. Binaənileyh [ona görə], xah [istər] əskidən bəri mətbuatımızda tanınmış simalar, xah [istərsə də] bir çox yeni vücuda gəlmiş həvəskar və gənc qələmlər namından [adından] zati-maarifpərvəranələrinə bilmüraciətən [müraciət edərək], hökumətimiz yardımı ilə bir məcmuə nəşrini arzu eyləməkdə və ya bu xüsusda bizlərə maddi müavinət verilməsi və yol göstərilməsini istida [xahiş] etməkdəyiz. Ümid ediriz ki, müstəqil bir ölkənin ədəbi məcəlləsiz qalması nəzərə alınaraq hökumət xərci ilə bir məcmuə nəşr etməyə müvəffəq olarız.

Məcmuədə çalışacaq, onun mənəvi cəhətini təmin edəcək mühərrir və ədiblər hazırda mövcud və işləməyə mühəyyadırlar [hazırdırlar]. Bu xüsusda yalnız Maarif Nəzarətinin əmr və iradəsini gözləməkdəyiz.

İmzalar:

Məhəmmədəmin oğlu Salman Mümtaz

Kazım oğlu Seyid Hüseyn Sadiq
Qafarzadə Əbdülxaliq Cənnəti
Əbdülxaliq Yaqubzadə Yusif
Kazımzadə Səməd Mənsur
Məhəmmədəli Sidqi
Axund oğlu Mirzə Məhəmməd
Məhəmmədzadə Əli Nəzmi
Əli Yusif Yusifzadə
Bədrəddin Əlhüseyni

İşbu məruzəni Məhəmmədəmin oğlu Salman Mümtaz əfəndi keçən gün Maarif Nəzarətinə təqdim etmiş, naziri-maarifpərvərimiz həzrətləri məmnuniyyətlə Salman əfəndini qəbul etməklə bərabər, etdikləri təşəbbüslərindən dolayı bəyani-təşəkkür etmişlərdir.

Həman gün Hökumət mətbəəsi üçün Tiflisdən hürufat [mətbəə hərfləri] alıb gətirməyə gedən nümayəndəsinə telefonla əmr etmiş ki, alacaq hürufatı iki kərə artıq alsın. Həman gecə nümayəndə Tiflisə azim olmuşdur [yola düşmüşdür]. Məcmuə, nazir əfəndinin məsləhətinə görə hələlik 200 səhifədən ibarət olmaqla müsəvvər [rəsmli] olaraq ayda bir nüsxə nəşr ediləcəkdir.

Nazir əfəndi bu xüsusda ətraflıca smeta hazırlayıb təqdim etməyi Salman əfəndidən rica etmişdir. İşbu smetanı həm Hökumətdən, həm də Parlamandan keçirəcəyinə söz vermiş və təmin etmişdir. Zənn edildiyinə görə, gələn fevral ayının ortalarında məcmuənin birinci nömrəsi nəşr edilə biləcəkdir.

Maarif nazirimizin işbu həmiyyəti-maarifpərvəranəsi şayani-təqdirdir [təqdirəlayiqdir]. Bu uğurda çalışacaq əfəndilərə müvəfəqiyyət diləriz.

## TƏMİZLİK LAZIMDIR

Səpkili yatalaq zühur etməsi və onunla mübarizə xüsusunda Bakı Şəhər Bələdiyyə İdarəsinin Səhiyyə şöbəsi nəşr etdiyi məlumatı burada dərc etməyi mənfəətdən xali [mənfəətsiz] bilmədik. Səpkili yatalaq, böyük sirayət edici [yoluxucu] və köçəri bir naxoşluqdur. Bu naxoşluq atidəki [aşağıdakı] səbəblərdən ittifaq düşür:

Bir otaqda çox nəfər yaşayışı, otaq natəmizliyi, pis havası, asanlıqla təmizlənməməsi, sakinlərin təamının yaxşı olmaması və soyuqdəymə. Odur ki, bu naxoşluğa çoxusu evsiz, kasıb fəhlə qismi və köhnə libas satan adamlar düçar olurlar. Bu naxoşluq, məhsulat az olan illərdə, dava vaxtı, camaat arasında iğtişaş və hərc-mərclik olduğu zaman ittifaq düşür. Həman naxoşluq, salamat şəxsə naxoşdan və ya naxoşa qulluq edəndən köçür. Əlavə, naxoşa dəymiş şeylərdən, ələlxüsus taxtabiti, birə və bit münasibəti ilə mərəz salamat adama köçür. Bu naxoşluqla bir şəxs azarlandığı kimi, evin qeyri üzvlərinə də sirayət etməyə şüru edir [başlayır]. Odur ki, böylə ittifaq düşdükdə həman saat tədbiri-əlac etmək lazım gəlir. Səpkili yatalaq insanın bədəninə daxil olduqda iki həftə keçir, sonra aşkar olur. Naxoş gücdən düşüb yorğan-döşəyə girməyə məcbur olur.

Bu naxoşluqla necə mübarizə lazımdır? Gərəkdir ki, libas, yorğan-döşəkdə və evdə həşərat (bit, birə, taxtabiti) varsa rəf etmək [aradan qaldırmaq], bədəndə həmçinin var isə hamamda gərək sabunla yuyunmaq lazımdır. Alt libası qaynadıb, üst libası və yorğan-döşəyin isə şəhərin dezinfeksiyonnu kamerasında su buğu ilə təmizləmək.

Taxtlarda, mənzillərdə o həşəratı qaynar su ilə, neft cövhəri ilə qırmaq və mənzildə olan yırtıqları tutmaq, tez-tez hamamda çimmək, əlləri yumaq, yatacağı tez-tez günə və havaya vermək. Xalı və qeyri böylə şeyləri bilmərrə götürmək lazımdır.

Füqəralar və hammallar [hamballar] yaşayan mənzil və mehmanxanaların təmizliyinə xüsusi diqqət yetirilsin və evlərin tez-tez havası dəyişdirilsin. Bu naxoşluq çox xətalı olduğu üçün bir balaca şəkli ittifaqlarda [şübhəli hallarda] o saat həkim çağırmaq və onun sərəncamına qulaq asıb əməl etmək lazımdır və əgər mümkün var isə hamısından yaxşısı böylə naxoşları şəhər xəstəxanalarına göndərməli və naxoş olan otağı dərmanlayıb, təmizləyib, sonra o otaqda olmaq olar.

Naxoş ilə əlaqədə olan gərəkdir ki, şəhər kamerasında hamama gedib orada libasını dərmanlasın. Təmizliyi ilə məşhur olan Yevropa məmləkətlərində bu cürə pis naxoşluqlardan indi əsər də yoxdur.

*C. Paşazadə*

## ŞUŞA ŞƏHƏRİ ƏHLİ SALMAN BƏY ƏLİBƏYOVUN BAKI HÖKUMƏTLƏRİNƏ VERDİYİ ƏRİZƏ*

Bütün Qarabağa məlumdur ki, Şuşa və Cavanşir mahalında olan 30-dan ziyadə [çox] müsəlman kəndlərinin mən nümayəndəsiyəm. Mənim vəkalətim əlimdən alınıb Şuşa mahal idarəsində saxlanır. Müsəlmanları xilas etmək üçün zatilərinizə məlum edirəm ki, Qarabağdakı müsəlman milləti Müttəfiqlərin təhti-himayəsində [himayəsi altında] yaşamaq istəyirlər. Millətin səsi, hərbi heyətə çatmayır. Çünki türk qitəatından [hərbi hissələrindən] və məhəlli [yerli] quldurlardan ibarət olan və hökuməti əllərinə almış bəy-xanların təhti-himayəsində olan dəstələr, əhalini soyurlar və qoymayırlar ki, millətin səsi ingilislərə çatsın. Şimdi bu ağalar Müttəfiqlərin, Andranikin və bütün ermənilərin əleyhinə ciddi təbliğatda bulunurlar və guya, bunlar müsəlmanları hər tərəfdən əhatə edib qırmaq istəmişdirlər. Bu fitnəçilik Ağdamda ingilislərlə olan hadisə və türk afserləri [zabitləri] komandası altında erməni kəndlərinə hücum etməklə nəticələnmişdir. Müqəssirləri istədikdə bütün qəbahətlər heç bir şeydən xəbəri olmayan millət əfradı [fərdləri] üzərinə qoyulur.

Heç kəs bunu dana bilməz ki, türklərin dəvət edilməsi müsəlman əhalisindən bixəbər olmuşdur və gəlib çıxan türklər, bu millətin özünü qarət etməklə bərabər, pulsuz olaraq milyonlarca put taxıl almışlardır.

Məmləkətdə asayiş bərpa etmək, həmçinin müsəlmanlara öz həqiqi arzularını Müttəfiqlərə yetirməyə macal vermək üçün və millət namından [adından] özlərini yalançı hakim adlandıranlara protesto etməkdən ötrü xahiş edirəm öz məzərrəti [ziyankarlığı] və müfəttinanə [fitnəkarcasına] hərəkatı ilə özünü yalançı adlandıran şəxslərin məmləkətdən kənar edilmələri ilə, həmçinin Azərbaycan dairəsində və Şuşa uyezdində gizlənməkdə olan türk zabit və məmurlarının nəfy [sürgün] edilmələri üçün tədbirlər it-

*Həmin ərizəni erməni və rus qəzetələrindən tərcümə edib də qəzetəmizdə dərc ilə qarelərimizin [oxucularımızın] diqqətini öz içimizdə olan namussuz və xainlərin əməllərinə cəlb edirik. Mərqum [adı çəkilən] Salman bəy Əlibəyovun kim olub-olmadığı haqqında qəzetəmiz tərəfindən xüsusi olaraq məlumat veriləcəkdir. *İdarə*

tixaz edəsiniz [tədbirlər görəsiniz].

Bunu da əlavə edirəm ki, bu müfəttinlər müsəlmanları ümidvar edib türklərin gələcəkləri ilə onların ruhlarını yüksəltməyə çalışırlar. Guya Ənvər paşa 60 min ordu ilə varid olacaqdır [gələcəkdir]. Bu əhvalatı mən Şuşa şəhərində olan ingilis heyətinə də xəbər vermişəm. Hərgah, siz mənə imkan və ixtiyar versəniz, Müttəfiqlər və ruslar əleyhinə daima təşviqatda bulunan türk zabitlərinin və başqa məmurlarının olduqları yerləri kəşf edərəm.

*Salman Əlibəyov*

**İkinci "ərizə"**

Qarabağın ləyaqətsiz bəyləri, yalançı mahal naçalniki Xosrov bəy Fulatov, Əli bəy Behbudov, Mirzəli bəy Behbudov, Əbülfət bəy Həsənbəyov, İbrahim bəy Hüseynbəyov, İsmayıl xan Ziyadxanov, Hüseyn ağa Cavanşir, Hüseyn bəy Vəzirov, Bəylər bəy Saybalinski və sair bəylər türklərin müavinəti ilə və türklərin arzularına əməl edərək təqsirim olmaya-olmaya və bilamühakimə [məhkəməsiz] yeddi aydan ziyadə mənə hər növ əziyyət verərək, mənim hürriyyətimi əlimdən aldılar, məni həbsə salıb, yeddi ay müddətində mənə olmazın əziyyət və cəfanı verdilər.

Yayın isti günlərində mənə su verməyirdilər. Susuzluqdan mən qəşş eyləyirdim. Gecələr hər kəs yatdığı halda mənim başımın tükünü yolub, üzümə tükürürdülər. Bu şərait altında protesto etməyim imkan xaricində idi. Zira mən onların ixtiyarında idim. Mövsuq [etibarlı] mənbədən anlamışdım ki, bu günlərdə həyatıma sui-qəsd ediləcəkdir. Necə ki, həbsxanada neçə ay bundan əvvəl Qəhrəman bəyə sui-qəsd edilmişdi.

Bu da məlumdur ki, məhbus Qəhrəman bəy, yuxarıda zikr edilən Fulatovun əqvamından [qohumlarından] Əli bəy və Mirzəli bəy Behbudovlar və Mirqafar ağa Ağamirov tərəfindən qətl edilmişdi. Bütün həbsxana məmurları bu ağaların adamları idi və onlar üçün bu kimi işlər yapmaq çox asan idi. Qatil Ağamirovu həbsxanaya həbsxana naziri buraxmış, açarçı məhbusun otağını açıb, qatil içəri girdikdən sonra tüfənglə Qəhrəman bəyi öldürmüş və sonra oradan çıxıb evinə qayıtmışdır. Nə qatil və nə həbsxana məmuru nə məsuliyyətə alınıb, nə də həbs edilmişlərdi.

Mənim canıma hazırlanan sui-qəsd barəsində mahal naçalnikinin kiçik müavini Nəzərova məlumat verdim. Amma o mənim tərəfdarım ola-ola mənim üçün heç bir iş görəmmədi və müstəntiqə məlumat verə bilmədi. Şuşa mahalı müstəntiqini dəvət etmək də müyəssər olmadı. Zira, mənə məlum olduğu üzrə, o qorxudan gələ bilməmişdir. Mən hər dəqiqə ölümümü gözləyirdim, fəqət Cənabi-haqq mənim altı uşağıma və qoca anama məni bağışlayıb xilas eylədi.

Şuşa uçastokunun müstəntiqi Raçkov, işlərinə görə məni şahid sifəti ilə öz otağına, erməni hissəsinə dəvət eylədi. Burada ermənilər mənim başıma gələn müsibətlərdən həyəcana gəlib məni gətirmiş olan mühafizə dəstəsini tərk-silah etdirib, mən o gündən etibarən gizlənib, yuxarıda zikr edilən cəlladların yanına getmədim. Buna da, əlbəttə mənim haqqım var idi. Ermənilərə və onların kəndçilərinə məlumdur ki, mən camaat xadi-

miyəm, 15 ildən ziyadədir ki, Qarabağ bəyləri və xanları ilə mübarizə edirəm. Məlumdur ki, o xanlar və bəylər alman və Türkiyə agentləridirlər.

1905-ci ildə erməni-müsəlman davasında mənim sayəmdə bir neçə erməni kəndləri xilas edildi. Mən bəylərin adamlarının birisi tərəfindən yaralanmışdım ki, indi də qolum şikəstdir. Bu sözlərimə "Russkiyi vedomosti" qəzetəsinin 173 nömrəli nüsxəsi şahiddir. O nüsxədə denilir ki, İstanbulda Almaniyanın əli ilə bir sui-qəsd hazırlanmışdır. O danışıqda fövqdə [yuxarıda] zikr edilən xanlarla bəylər iştirak etmişlərdi və bunların məqsədi də bu idi ki, Qafqaziyada bütün erməniləri məhv edib, böyləliklə Qafqaziyaya türklərə yol açılıb, axirüləmr [axırda] Naxçıvan xanlığını təcdid [bərpa] etsinlər.

İştə bundan dolayı Qarabağ xan və bəyləri inqilab və hürriyyətdən istifadə edərək, öz planlarını icraya qoymaq istəmişlərdir. Heç kim inkar edə bilməz ki, bu xan və bəylər, müsəlman camaatını ermənilərin, ingilislərin və rusların əleyhinə qalxızırlar və müsəlmanlara deyirlər ki, ruslar guya Təbrizdə müctəhidi dara çəkmişlər və bizim müqəddəs yerlərimizi təhqir etmişlərdir. İngilislər isə Məkkə və Mədinəni bombardman etmişlərdir. Mən mitinqlərdə isbat edirdim ki, bunlar iftiradır, əsli yoxdur. Ona görə də bəylər bütün mühacirləri və orada olan rus qoşun qitəatını [hissələrini] qırmaq istəmişlərdir. Bu sözümün sübutu, indi 1917-ci ildə Qaryagin mahalından Araküldən polkovnik Ramaşevskinin Tiflisə Qafqaziya hərbi naçalniki namına göndərdiyi teleqramın surətini təqdim edirəm. İştə teleqrafın məalı [məzmunu]:

*Qaryagin uyezdinin hər yerində üsyandır. Əsgəri qitəat üzərinə hücum edib saldatları, zabitləri öldürürlər. Bunların var-yoxlarını qarət edib bəzən diri-diri yerə basdırırlar. Tələfat artıqdır. Qaryagində olan Cəbb-Vəng zəif qarnizonları mühasirə edilmişlərdir. Yeməli şeylər olmadığından aclıq çəkirlər. Qaryagin əsgəri mühimmat və ləvazimat [hərbi silah-sursat] anbarı, bundan əlavə Bakı-Culfa dəmiryolunun ərzaq anbarı qarət edilmişdir. Bu anbar qarət edildiyi zaman barut anbarı patlayıb, evlər dağılmışdır. Poçta-teleqraf işləmir. Teleqraf xətləri doğranmışdır. Əhval fəlakətlidir. Üçüncü alay gəlməmişdir. Qanun və asayişi bərpa etməkdən ötrü və Ağdamdan ərzaq şeyləri gətirmək üçün cəza dəstəsi göndərilməsini xahiş edirəm. Sizin yubanmağınız dinc əhalini və qoşunu dəhşətli təhlükələrlə təhdid edir.*

*Polkovnik Ramaşevski*

Xanlar, bəylər sayəsində avam camaat eşalonlara hücum edib onları öldürməklə silahlarını əllərindən alırdı. Gəncə və Qazax uyezdlərində dəmiryolunun hər iki tərəfi minlərcə meyitlərlə örtülü idi. Rus mühacirlərinin kəndlərini xarab etmişlərdir. Erməni saldat və zabitləri dəmiryollara olan hücumlardan xəbərdar olub, Naxçıvan və Zəngəzur uyezdləri təriqi [yolu] ilə quru yoldan dağlar və meşələr arası evlərinə qayıtmağa məcbur olmuşdular. Lakin burada da Zabuxda onlar, yüzlərcə qırılmışlardır.

Qarabağın hər bir tərəfində həmin xanların və bəylərin sayəsində quldur dəstələri əmələ gəlmişdir. Türklərin Qarabağa dəvət edilmələri müsəlman əha-

lisindən bixəbər olmuşdur. Bunu da nümayəndəsi olduğum 32 müsəlman kənd əhalisi təsdiq edə bilər. Mənim səy və təlaşıma görə, türklər gələnə qədər bu uyezdlərdə xristianlar əleyhinə heç bir çıxış və təcavüz olmamışdır. Mən həbs edildikdən sonra türklər Şuşa uyezdində Xanabad, Naxçıvanik, Pircamal, Aranzəmin, Ağbulaq, Dağraz, Hatsi və Qaladərəsi kəndlərini dağıtmışlar. Bu kəndlərin əhalisi digər kəndlərə qaçmışlardır.

Bu xanlar və bəylər məni azadlıqdan məhrum edib, ağalıq etməyə başlayıb, kəndlilərdən və burjuylardan bixəbər öz aralarında bir hökumət təşkil etməyə müvəffəq oldular. Yüzlərcə adamları həbs edib minlərcə pul aldıqdan sonra azad edirlər. Kasıblar, onlara tabe olmayanlar və xüsusi düşmənçilikləri olanlar aylarca sorğu-sualsız həbsxanada çürüməkdədirlər. O cümlədən deyə bilərəm ki, iki ay bundan əqdəm [qabaq] Şuşa şəhərində Çərkəz bəy Şəfibəyov günün günorta çağında bir nəfər Şuşa əhlini öldürdüyünə görə həbsə alınmışdı. Məhəlli hökumət 5 min manat rüşvət aldıqdan sonra onu həbsdən azad etdi. (Hələ o zaman şəhər idareyi-örfiyyə [hərbi rejim] altında elan edilmişdi. Bir nəfər bədbəxt çəkməçi ermənidən bir tüfəng tapıldığına görə asılmışdı.) O vaxt yenə də bir nəfər Şuşa əhli İsa Şəfibəyov öz arvadını öldürdüyündən həbsə alınıb, 3 min manat rüşvət verdikdən sonra azad edilmişdi. 3 ay bundan irəli Kərbəlayi Əbəş oğlu öz qardaşını öldürməyi boynuna alıb həbs edilmişdi. 6 min manat verdikdən sonra o da azad edilmişdi. Yenə də 3 ay əqdəm Xocalıda 4 nəfər rus öldürülmüşdü. 15 nəfər qatil həbs edilib 15 min manat verdikdən sonra azad edilmişlərdi. 4 ay əqdəm həbsxana müdiri Şəfiyev həbsxana anbarından 50 min manatlıq şey oğurlamışdı. Bu iş barəsində məni də şahid sifəti ilə danışdırdılar. Şəfiyev həbs edilmişdisə də, 10 min manat verdikdən sonra azad edilmişdi. 5 ay bundan irəli həbsxanada Qəhrəman bəy qətl edilmişdi. Qatil Xuduş Quliyev, əsgəri naçalnik Raçkovskinin külfətində olduğuna görə nəinki həbs edilmədi, hətta türklər gəldiyi zaman şəhər tərəfindən türkləri istiqbal etməkdə [qarşılamaqda] belə iştirak edirdi. Bu cinayətlərin heç birisi Şuşa uçastokunun müfəttişinə yazılıb verilməmişdir. Azərbaycan Cümhuriyyətinin bu tövr məmurlarının əmrinə görə, özümdə heç bir təqsir görmədiyim halda 7 ay həbsxanada qalıb ölümümü gözləyirdim.

Mən hər bir kəs kimi öz həyatımı əziz tutub, cəlladlar əlindən məni qurtaran ermənilərə razıçılıq izhar edirəm. Bunların hamısını sizə xəbər verməyi lazım görüb xahiş edirəm ki, məni öz himayəniz altına alasınız, tainki mən öz ac külfətimin yanına qayıda biləm.

**Eyni zamanda təvəqqe edirəm ki, Cavanşir və Şuşa uyezdləri müsəlman əhalisinin nümayəndəliyi ixtiyarını mənə vagüzar edəsiniz [tapşırasınız].**

*Salman Əlibəyov*
*18 dekabr 1918, Şuşa şəhəri*

## BAKI XƏBƏRLƏRİ

**Miln cənablarının vürudu [gəlişi]**

Balkan yarımadası ilə Qafqaziyada Ümum Müttəfiqlər qoşunu Baş koman-

danı Miln, dün gecə paytaxtımıza varid olmuşlardır [gəlmişdir]. Mehman, təntənəli bir surətdə istiqbal edilmişdir [qarşılanmışdır]. Qatar gəlmədən əvvəl vağzala Azərbaycan milisləri və ingilis əsgərlərindən ibarət fəxri qaraqol qonulmuş, vağzal Azərbaycan bayraqları ilə təzyin edilmişdi [bəzədilmişdi]. Generalı Azərbaycan Hökuməti tərəfindən Türuq və Məabir [Nəqliyyat və Rabitə] naziri, Daxiliyyə və Xariciyyə nazirləri müavinləri istiqbal etmişlərdir [qarşılamışlar].

Hökumət namından Xariciyyə naziri müavini Ziyadxanov cənabları böylə bir nitq irad etmişlərdir [söyləmişlər]:

*"Cənabi-ali! Azərbaycan Hökuməti sizi və sizin şəxsinizdə böyük ingilis milliyyətini səmimiyyətlə təbrik edir. Bizim siyasi və ictimai xadimlərimiz bilirlər ki, öz millətimizin rifah və səadəti üçün ancaq mədəni millətlərin yaxın dostluğu ilə qüvvə taparız. Biz qəviyyən [möhkəm] etiqad ediriz ki, hürriyyətpərvər İngiltərə oğulları bizdən çox şad olarlar ki, bu gün Azərbaycan türkləri onları zəncir və kündə ilə bağlanmış qul kimi deyil, aliheyi-hürriyyətə [hürriyyət pərisinə] mədh oxuyaraqdan istiqbal edirlər. "Habeas korpus" və "Maqna xarta libertatum" (İngiltərədə qüruni-vüstada [orta əsrlərdə] verilmiş olan hürriyyətlər) kimi böyük yadigarlar, əsrlərdən bəri Taymis çayı kənarından həyat verici nuru ilə bütün cahanı işıqlandırır. İki aydan bəri paytaxtımızda bulunan İngiltərə nümayəndələri və başda duran general Tomsonun zəka və siyasi taktikası və millətlərin hüququna ehtiramı bizim vifaq [həmrəy] və sədaqətlə işləyəcəyimizə yaxşı bir rəhn və Azərbaycan camaatı hüququnun Ümumi Sülh Konfransında müdafiəsinə möhkəm təminatdır. Zati-alilərinizin kəndi səlahiyyətinizlə dostluğumuzu daha da möhkəmləşdirəcəyi ümidi ilə sözlərimi müsaidənizlə şu kəlmələrlə bitirəyim: Xoş gəlmişsiniz!"*

General səmimi ifadə ilə cavab vermişdir:

*"Mən buraya böyük Müttəfiq dövlətlər nümayəndəsi sifəti ilə gəldim. Məqsədimiz bu məmləkətdə sülh və ədaləti paydar [bərqərar] etməkdir. Müttəfiqlərin qələbəsi hüquq, ədalət və millətlərin təyini-müqəddərat ixtiyarı təmininin rəhnidir. Sülh Konfransında burası bəyan ediləcəkdir. İbraz etdiyiniz hüsn-istiqbaldan naşi [göstərdiyiniz xoş qarşılama üçün] təşəkkürümü bəyanla sizi cəsarətlə inandırıram heyəti-mürəxxəsəniz [nümayəndə heyətiniz] hazırda Fransa yolundadır. Qoşunlarımız məmləkətinizdə bulunduqca hüsn-qəbul və hər dürlü müzahirət [köməklik] görəcəklərinə ümidvaram. Məmləkətinizin ticarət və sənaətinin [sənayesinin] tərəqqisinə var qüvvəmizlə çalışacağız. Onlarla bərabər, əminəm ki, siz həmişə çalışacaqsınız qonşularınızla sülh və ədalət pozulmayacaqdır. Azərbaycana mənə göstərdiyi hüsn-qəbuldan naşi bir daha təşəkkür edirəm."*

Mehman, Tağıyevin evində yerləşdirilmişdir. Bu yaxınlarda Tazəşəhərə gedəcək və bir neçə gün orada qaldıqdan sonra yenə Bakıya qayıdacaqdır.

**Türk mütəallimələrinə [tələbələrinə]**

Bakı Türk Məktəblərinin İttifaqı bununla cümə günü yanvar ayının 24-də saat 4 tamamda Birinci Realnı məktəbin binasında Bakı orta məktəblərində ox-

uyan türk müttəllimə xanımlarını (4-cü sinifdən yuxarı) ümumi iclasa dəvət edir. Rica olunur vaxtında gəlib gecikməyəsiniz.

*İttifaq idarəsi*

**"Müsavat" firqəsinin Dağıstan Cümhuriyyəti Parlamanına teleqrafı**

Dağıstan Millətləri İttifaqının Parlamanı sədrinə

"Müsavat" firqəsinin mərkəzi komitəsi, Dağıstan Millətləri İttifaqının Məclisi-Məbusanını ən-səmimülqəlb [səmimi qəlbdən] təbrik və təhniyət [mübarəkbadlıq] edir. Azərbaycanla ayrılmaz əlaqəsi olan hürriyyətpərvər Qafqaziya dağları qartallarının arzu və amalına əməl olunmaqda müvəffəqiyyətlər dilər. Firqə ümidvar olur ki, Dağıstan millətləri ilə Azərbaycanın ümumi mənafeyi gənc, demokratik və qardaş cümhuriyyətlərin mütə- qabil [qarşılıqlı] dostluğu üçün möhkəm bir vəsilə olar.

*Mərkəzi Komitəsi sədri Rəsulzadə*

**Səhvən verilmiş bir icazənamə**

Xaçaturov ilə Françeski adına İngiltərə Baş komandanı tərəfindən verilmiş icazənamə ilə Tiflisə bir vaqon qəzetə kağızı aparılmağa izin verilmiş imiş. Ərzaq Nəzarəti bu işdən xəbər tutub bu günlərdə həman icazənaməni imza edən ingilis komandanlığında Təftişat şöbəsi naçalniki leytenant Kreçleyin tərəfindən bunun nədən ötrü verildiyi barəsində sual olunub, məlum olmuş ki, məzkur [adı çəkilən] Xaçaturova verilən icazənamə səhvən verilmişdir. Kağız vaqonu hələ yola salınmamışdır. Nəzarət hökm edib ki, kağızı zəbt etsinlər.

**Hadisat**

* Ermənikəndində olan Poqos Kazarov polisəyə məlum edib ki, iki gecə əvvəl 6 nəfər tapança ilə müsəlləh [silahlanmış] erməni onun evinə gəlib hədə ilə 16870 manat pulunu alıb qaçıblar.

* Bazarnı küçədə, 85 nömrəli evin qabağında bir rus övrətinin meyiti tapılıbdır.

* Balaxanski küçədə 70 nömrəli evdə olan İsay Belenki polisəyə məlum edib ki, srağagün sübh tezdən Çornı-qoroda gedərkən Budaqovski küçədə 3 nəfər müsəlləh cavan erməni, qabağını kəsib güclə 1500 manat pulunu, paltosunu və gümüş papiros qabını alıb qaçmışlardır.

## AZƏRBAYCANDA

**Qalabazardan**

(Lənkəran uyezdi)

* Dekabr ayının 20-də, gecə saat 8-də, 4 nəfər saldat bir zabitlə Qalabazara gəlib şirvanlı Məlik Mahmudun dükanını sındırıb bəzzaz [parça, arşınmalı] və tənbəki malının hamısını Nikolayevka kəndinə aparıblar. Zərər həştad min manatdır. Ərkivan komissarının qoyduğu qarovul və mühafizə əsgərləri də onlara imdad [kömək] etmiş.

* Dekabr ayının 22-də, gecə saat 9-da, Qalabazarın mühafizə əsgərləri Yeddioymaq kəndinin əhli Molla İsgəndəri qətlə yetiriblər. Rus-müsəlman davası olarkən, o mərhumu güllə atmaqlıqla itham edirmişlər.

* Ərkivan komissarı Qalabazarda sakin olub, orada mühafizə əsgərləri təyin etmiş, lakin onlar artıq dərəcədə camaa-

ta əziyyət və zülüm edirlər. Bazara yağ, düyü, un və buğda gətirən şəxslərə mane olurlar. Camaatı alış-veriş etməyə qoymurlar. Ərkivan komissarı orada olmayan zamanı hərəsi bir Nikolay olub, məxluqu döyüb pul alırlar.

Bazar günləri bazardan çıxan şəxsləri quldur dəstəsi kimi biçarə müsəlmanların yolların kəsib evlərinə apardığı şeyləri və pulların alıb buraxırlar.

Dekabrın 28-də Yusif bəyin anasından 225 manat pul alırlar.

*Teymur bəy*
*Bayraməlibəyli*

## GÜRCÜSTANDA

### Müsadirə edilmiş erməni pulları

Məlum olduğu üzrə, Tiflis banklarında ermənilərin külli miqdarda pulları saxlanılmaqdadır. Erməni-gürcü davasında Gürcüstan Hökuməti bu pulları müsadirə etmişdi. Yanvarın 16-da əqd edilən [baş tutan] konqre iclasında erməni vəkilləri, ermənilərlə gürcülər arasında müharibə başlanıldığı zaman müsadirə edilmiş erməni pullarının qaytarılması məsələsini qalxızmışlardır. Erməni vəkilləri bu məsələyə çox artıq əhəmiyyət vermişlərdir. Gürcü vəkilləri biləks [əksinə] bu məsələni xüsusi bir məsələ hesab etmişlərdir. Zira, bu pullar müharibə qanunu üzərinə müsadirə və hərbi bir mükafat hesab edilmişdir. Müharibə ilə gürcülərə dəyən zərərləri ödəmək məsələsi ilə bu müsadirə məsələsinin böyük əlaqəsi vardır. Gürcü vəkilləri tələb etmişlər ki, bu pul məsələsi konfransda həll edilməsin. Erməni hökumətinin pula ehtiyacı olduğunu nəzərə alan gürcü vəkilləri, erməni hökumətinin Gürcüstan Maliyyə Nəzarətinə müraciət etməsini təklif eyləmişlərdir.

Bu xüsusda bir çox danışıqdan və hər iki tərəfin nöqteyi-nəzəri bəlli olduqdan sonra Müttəfiqlər nümayəndələri gürcülərin nöqteyi-nəzərlərinə şərik olduqlarını bildirmişlərdir.

Böyləliklə, bu pul məsələsi konfrans müzakirəsindən çıxarılmışdır. Yanvarın 16-da hər iki cümhuriyyət nümayəndələrinin maliyyə məsələsi xüsusunda şuraları vaqe olmuşdur.

### Könüllü ordu ilə saziş

Potidən xəbər verirlər ki, general Denikinin Könüllü ordusu ilə gürcü dəstələri arasında saziş hüsula [əmələ] gəlmişdir. Gürcü dəstələri müəyyən sərhəd xətlərini devirirlər.

## BİZƏ YAZIRLAR

### Qars, Ərdahan və Batumda

Türkiyə ilə Etilaf [Antanta] dövlətləri arasında əqd edilən mütarikə şəraiti mövcibincə [imzalanan atəşkəs şərtlərinə əsasən], Qars, Ərdəhan və Batum həvalisi [ətrafları] təxliyə edilərək, ingilis quvayiəsgəriyyəsinə [ordusuna] dövr edilməsi və idareyi-mülkiyyənin [mülki idarənin] dəxi Türkiyə dövlətində qalması göstərilmiş idi. Fəqət İstanbul ilə Etilaf dövlətlərinin müzakirəsi nəticəsində idareyi-mülkiyyənin dəxi Etilaf dövlətlərinə tərki qərarlaşdırılmış olmaqla, əxirən [son vaxtlarda] türk hökuməti-mülkiyyəsi möv-

qeyini təxliyə etmişdir. İngiltərə dövləti tərəfindən Batum oblastı general-qubernatorluğuna Kuk Koliss təyin edilmiş və müşarünileyh [adı çəkilən şəxs] də Batum Rus Şurayi-Milli rəisi Maslovun rəyasətində olmaq üzrə bir heyəti-idarə təşkil etmişdir. Məzkur [adı çəkilən] idarəyə hər millətdən ikişər zat daxil olduğu halda Batum oblastında islamların əksəriyyəti təşkil etmələrinə müxalif olaraq bir zat daxil ola bilmişdir. Məhəlli [yerli] islam məclisi-idarəsi [idarə məclisi] buna qarşı protesto edərək işbu heyəti-idarə ilə heç bir münasibətə girişməyəcəyini ingilis general-qubernatoruna bildirmişdir. 130000 nüfusu təcavüz edən [sayı 130000 nəfəri keçən] islam əhali, Batum həvalisində kəndinə məxsus hər uçastokda bir idareyi-mülkiyyə təşkil edərək hüquqi-milliyyələrini müdafiə və mühafizə etməkdədirlər.

Qarsda isə vəziyyət daha başqa bir haldadır. Dekabrın 16-da daha Qarsa gələn ingilis generalı, erməni camaat xadimlərindən Karqanovun rəyasəti altında bütün üzvləri ermənilərdən olmaq üzrə bir heyəti-idarə təşkil etmişdir. Feilən Qarsda bir erməni hökuməti təşəkkül etmişdir. İşbu erməni hökumətinə islamlar protesto etməkdədirlər. Qars oblastı islamlarının Qars şəhərində ümumi və mərkəzi parlamentoları vardır. İşbu parlamento Qars oblastının idarəsini tənzim etməkdədir.

Ərdahanda isə bütün idarə yerli islam əhalisinin əlindədir. Qars, Batum və Ərdahan islamlarının ingilis məhfillərinə [dairələrinə] xitabən göndərdikləri müxtirə [xəbərdarlıq] və protestolara son zamanlarda diqqət və əhəmiyyət verilməkdədir. Bir ingilis məhfilləri hal-hazırda təşkil edilən idarənin müvəqqəti olduğunu və yaxın bir zamanda əksəriyyətin hüququnu təmin etmək üzrə bir idarə təş- kil ediləcəyini bəyan etməkdədirlər.

Qars islamları Sülhi-Ümumi konfransına iştirak etmək üzrə iki mürəxxəs [nümayəndə] seçib İstanbula göndərmişlərdir. Batum oblastı islamları dəxi yaxında mürəxxəslərini göndərərək, Qars mürəxxəsləri ilə birlikdə hərəkət etməyi tərcih etməkdədirlər.

## TEATRO VƏ MUSİQİ

* Bu gün cümə günü, yanvar ayının 24-də axşam Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən Hökumət Teatrında (sabiq Mailov) "Qəzavat" faciəsi mövqeyi-tamaşaya qoyulacaqdır. Əhməd bəyin rolunu məşhur artist Hüseyn Ərəblinski ifa edəcəkdir. "Qəzavat" faciəsi dağıstanlıların hürriyyət uğrunda fədakaranə bir surətdə mübarizə etdiklərini gözəlcə təsvir edən şükuhlu [təntənəli] və tarixi bir teatrodur.

* Eşitdiyimizə görə Maarif naziri həzrətləri teatro işində yeni bir tərəqqi qədəmi və əhalimizi Avropa operaları ilə aşina [tanış] etmək təşəbbüsü olmaq üzrə Avropa operalarından birinin türkcəyə tərcüməsini Üzeyir bəy Hacıbəyov cənablarına həvalə etmişdir.

Məlum olsun ki, Qafqaziyada olan cümhuriyyətlərdən Avropa operalarını öz dillərində mövqeyi-tamaşaya qoyanlardan birincisi gürcü qonşularımızdır ki, "Demon", "Karmen" kimi operaları neçə sənədir ki, tərcümə etmişlərdir.

## İDARƏDƏN CAVABLAR

Mirzə Abbas Şahbazzadə əfəndiyə: Məqalənizi kağızın ancaq bir üzündə və mürəkkəblə yazmalısınız.

"Ağıldan qıvraq" əfəndiyə: Görünür ki, məqalinizi paketə qoyub adresini yazarkən "Şeypur" jurnalı əvəzinə səhvən "Azərbaycan" qəzetəsi yazıbsınız. Səhvinizi düzəltmək istəsəniz zəhmətini biz qəbul edib "Şeypur"a ötürərik.

Qaxlı Sədrəddin əfəndiyə: Elmin fəziləti və müəllimlik vəzifəsi haqqında çox danışılıbdır. Bu gün bunu heç kəs inkar etməyir. Olduğunuz yerin ehtiyacati-zəruriyyəsindən və həvadisatından [zəruri ehtiyaclarından və hadisələrindən] bizə xəbər versəniz, mənfəətli iş görmüş olarsınız.

Mirhəsən Axundzadə əfəndiyə: Məktəbi-hərbiyyəmizdə təlim işləri rusca gedir, deyə dövran edən şayiat [gəzən şayiələr] məlumumuz olduğu üzrə əsassızdır.

"Bir şamaxılı" əfəndiyə: Yazdığınız azdır. Şayani-diqqət vəq'ələrdən [hadisələrdən] bir qədər də yazıb göndəriniz ki, hamını bir yerdə çap edək.

**Mehmanxaneyi-"Məhəmmədiyyə"**

Qubernski küçədə "Azərbaycan" mətbəəsi ilə rubəru [üzbəüz] Hüseynov qardaşlarının 72 nömrəli evində mehmanlardan [qonaqlardan] ötrü təmiz otaqlar hazırdır.

*Kamali-ehtiramla İbrahimov*

**Doktor İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsinin küncündə). Telefon nömrə 42-12.

*2658*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Hökumət mətbəəsi**

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir. Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

*T-13*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

### İnna lillahi...

səh. 399. "İnna lillahi və inna ileyhi raciun": "Həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq". Bu ifadə, "Quran"ın Bəqərə surəsinin 156-cı ayəsinin bir hissəsidir. Ayə belədir: "O kəslər ki, başlarına bir müsibət gəldikdə, həqiqətən biz Allaha məxsusuq və həqiqətən Ona qayıdacağıq, deyərlər."

### Satılır

səh. 399. "BORN": "Bakı Rus Neft Cəmiyyəti" (Бакинское общество русской нефти - БОРН).

### Tətil etməlimidir?

səh. 401. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

### Teleqraf xəbərləri

səh. 403. "Manueli kral elan etmişlərdi...": burada söhbət 1908-1910-cu illərdə hakimiyyətdə olan axırıncı Portuqaliya kralı II Manueldən gedir.

"...Avstriya flotu Korfuya...": qəzetdə "Korfu" yerinə səhvən "Korku" getmişdir.

"Ledebur və Meyer": qəzetdə "Ledeburq və Mebyer" kimi getmişdir; söhbət Alman sosial-demokratlarının liderləri olan Georq Ledebur və Ernst Meyerdən gedir.

"Freyheyt": güman ki, Almaniya Müstəqil Sosial-Demokrat Partiyasının orqanı olan "Freyheyt" [Freiheit - Azadlıq] qəzeti nəzərdə tutulur.

### Sülh ətrafında

səh. 403. Qar dö-Orse [Gare d'Orsay]: Parisdə 1900-cü ildə dəmiryol vağzalı və mehmanxana kimi tikilən bina. 1986-cı ildən Orse muzeyi [Musée d'Orsay] kimi fəaliyyət göstərir.

### Şuşa şəhəri əhli Salman bəy Əlibəyovun...

səh. 406. Əslində özünün dağıdıcı fəaliyyətini elə öz ərizələrində ifşa edən Salman Əlibəyov Qarabağda antimilli "inqilabi" fəaliyyətlə məşğul olmuş, bu fəaliyyətində əsasən erməni "inqilabçıları" ilə əlbir olmuşdur. "Lenin milli siyasətinin" Qarabağda "təntənəsindən" (!) bəhs edən mənbədə Salman Əlibəyov haqqında belə məlumat verilir: "Dağlıq Qarabağda bəylərə və xanlara, alman-türk müdaxiləçilərinə qarşı mübarizə aparan silahlı kəndli dəstələrinə o illərdə Salman Əlibəyov başçılıq edirdi. Hələ 1906-cı ildə o, Qarabağ bəylərinin tələbi ilə Şuşadan sürgün edilmişdi, ancaq qaçmağa müvəffəq olmuş və yenə gizli inqilabi fəaliyyətlə məşğul olmağa başlamışdı." (İ. S. Müslümov, İ. M. Mosesova, Y. Q. Sarkisyan, "Sovetskiy Naqornıy Karabax: torjestvo Leninskoy natsionalnoy politiki" [Sovet Dağlıq Qarabağı: Lenin milli siyasətinin təntənəsi], "Azərnəşr", Bakı, 1983.) Digər yandan, Salman Əlibəyovun öz ərizələrində milli hissləri qızışdırmaqda günahlandırdığı adamlar haqqında son illərdə aşkar edilən arxiv materialları, Əlibəyovun qərəzli mövqe tutduğunu və bu adamları qaralamaqla məşğul olduğunu sübut edir.

### Bakı xəbərləri

səh. 409. "Miln cənablarının vürudu": burada söhbət Corc Milndən [George Milne] gedir; qəzetdə xəbər boyu "Miln" yerinə "Mil" yazılmışdır.

səh. 410. "Habeas korpus": İngiltərə Parlamentinin 1679-cu ildə qəbul etdiyi və Böyük Britaniya Konstitusiyasının tərkib hissəsi olan insan hüquqları aktı "Habeas korpus akt" [Habeas Corpus Act] nəzərdə tutulur.

"Maqna xarta libertatum": Böyük Azadlıqlar Xartiyası [Magna Carta Libertatum]: İngiltərədə 1215-ci ildə tərtib edilən

siyasi-hüquqi sənəd. İngiltərənin azad əhalisinin hüquqlarını qoruyan və kralın səlahiyyətlərini məhdudlaşdıran bu sənəd, insan hüquqları anlayışının inkişafında mühüm rol oynamışdır.

"Bakı Türk Məktəblərinin İttifaqı": güman ki, "Bakı Türk Mütəəllimlərinin İttifaqı" olmalıdır.

**Teatro və musiqi**

səh. 413. "Qəzavat": İslam dinini qorumaq və yaymaq məqsədi ilə müsəlman olmayanlarla aparılan müharibə mənasına gələn "qəza" sözünün cəm halı. Burada S. Lanskoyun "Qəzavat" pyesindən söhbət gedir. Pyesin tərcüməçisi Əbdürrəhim bəy Haqverdiyev idi.